# Gənclik və idman

## Zona yarışı

Qəbələ Olimpiya İdman Kompleksində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə İdman Məktəblərinin VI Respublika Oyunlarının proqramına daxil olan sərbəst güləş üzrə 2001—2002-ci il təvəllüdlü yeniyetmələr arasında zona yarışı keçirilmişdir.

Yarışın keçirilməsində məqsəd respublikada sərbəst güləş idman növünün inkişaf etdirilməsi, yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyəsində bədən tərbiyəsi və idmanın rolunun artırılması, həmçinin onların idman ustalıqlarının yüksəldilməsi, idman məktəblərinin işinə baxış, yığma komandalara namizədlərin hazırlanması və Olimpiya İdman Komplekslərindən səmərəli istifadə etmək idi.

Zona birinciliyində respublikanın 14 rayonundan 140-dək güləşçi 14 çəki dərəcəsində mübarizə aparmışdır. Yarışın yekun nəticəsinə əsasən 26 kq çəkidə Miryusif Rüstəmov (Bərdə rayonu), 29 kq çəkidə Əjdər Vəliyev (Xaçmaz rayonu), 32 kq çəkidə İbrahim Eyvazov (Şamaxı rayonu), 35 kq çəkidə Həsrət Maqsudov (Şabran rayonu), 38 kq çəkidə Muradağa Ağamalıyev (Siyəzən rayonu), 42 kq çəkidə Elşən Ələkbərov (Xızı rayonu), 45 kq çəkidə Tural Səfərov (Siyəzən rayonu), 48 kq çəkidə Şahin Bədirli (İsmayıllı rayonu), 52 kq çəkidə Orxan İsmayılov (Yevlax rayonu), 56 kq çəkidə Məhəmmədəli Baxşıyev (Qobustan rayonu), 60 kq çəkidə Murad Şəfiyev (Qəbələ rayonu), 65 kq çəkidə Murad Yusifzadə (Xaçmaz rayonu), 75 kq çəkidə Alxan Abdullayev (Yevlax rayonu) və 80 kq çəkidə Fərman Şükürov (Ağdam rayonu) I yerləri tutmuşlar.



Hər çəki dərəcəsində I və II yeri tutmuş güləşçilər Balakən rayonunda keçiriləcək final mərhələsinə vəsiqə qazanmışlar.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

## Rayon birinciliyi

Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhər 3 saylı tam orta məktəbdə XI sinif şagirdləri arasında «Vətənin müdafiəsinə hazıram» poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi yarışı keçirilmişdir.



Yarışın keçirilməsində məqsəd yeniyetmə və gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşına qədərki gənclərin hərbi hazırlığını gücləndirmək, idmançılarda yarış təcrübəsini və ustalığı artırmaq, rayon çempionunu aşkar etməkdən ibarət idi.

Tədbirin açılış mərasimində Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından danışaraq yarışın məqsəd və vəzifələri barədə məlumat vermiş və komandalara uğurlar arzulamışdır.

Beynəlxalq Poliatlon çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma növləri üzrə keçirilən yarışda rayonun tam orta məktəblərinin 12 komandası iştirak etmişdir. Komandanın tərkibi 5 idmançı və 1 məşqçidən ibarət olmaqla yarışın yekununa əsasən ən çox xal toplamış komanda qalib hesab edilmişdir.

Rayon birinciliyində Əmirvan kənd tam orta məktəbin komandası I yeri, Soltannuxa kənd tam orta məktəbin komandası II yeri və Qəmərvan kənd tam orta məktəbin komandası III yeri tutmuşdur. Qalib komandalara Gənclər və İdman idarəsinin diplomları təqdim edilmişdir.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin məsləhətçisi.**

### Futbol

## On üç yaşlılar Türkiyədə

Türkiyənin Antalya şəhərində Beynəlxalq turnirdə iştirak edən «Qəbələ»nin 13 yaşadək futbolçularından ibarət futbol komandası burada keçirdiyi iki oyunla yarış cədvəlinin yüksək pilləsində qərarlaşıb.

Qrup mərhələsinin son oyununda yerli komanda ilə qarşılaşan həmyerlilərimiz rəqibini böyük hesabla məğlub etmişdir—4:0. Toplardan üçünü Təbriz İsazadə, birini isə Məhəbbət Abbaslı rəqib qapısından keçirmişdir.

**Şöhrət SÜLEYMANOV.**

## «Qəbələ» mühüm xalları əldən verdi

Unibank Premyer Liqasında yüksək yerləri tutmaq uğrunda keçirilən növbəti XXV turda "Qəbələ" "Simurq"u qəbul edirdi. Yeni məşqçi dəyişikliyindən sonra komandamız ilk oyuna inamla başladı. Onuncu dəqiqədə 22 nömrəli yarımmüdafiəçimiz Leonar Assisin vurduğu top "Qəbələyə" uğur gətirdi. Ancaq komandamız bu qələbəni axıradək qoruyub saxlaya bilmədi. Müdafiəyə çəkilən komandamız xal itkisi ilə üzləşdi. Belə ki, oyunun 90-cı dəqiqəsində zaqatalalılar vurduqları yeganə qolla Qəbələdən 1 xal apardılar. Bununla da komandamız nəinki medala sahib olmaq, həmçinin Avroliqaya düşmək şansından xeyli uzaqlaşdı.

**Miri RƏHİMOV.**

## 4:2 hesablı qələbə

Qəbələ Rayon Uşaq Gənclər İdman məktəbinin tədbirlər planına əsasən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş futbol yarışları davam edir. Növbəti yarış Kiçik Əmili və Mamaylı kənd məktəb komandaları arasında keçirilmişdir. İlk iki topu Mamaylı məktəbliləri vursalar da, qələbəni axıradək qoruya bilmədilər. Kiçik Əmili kənd məktəbliləri oyunda böyük dəyişikliyə nail olurlar. Nəticədə görüş 4:2 hesabı ilə onların qələbəsi ilə başa çatdı.

**Nəriman SƏMƏDOV,**
**yarışın hakimi.**

## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli qərarla Vəndam qəsəbə sakini Abdurahmanov Səməndər Baba oğlunun adına verilmiş JN-669 №-li (kod 40600048) Torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

10 saylı Ərazi Vergilər İdarəsinin kollektivi iş yoldaşları **Elman Qafarova**, atası

**ÖMƏR QAFAROVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Aytən Nadirovaya**, bacısı

**ÇİMNAZ XANIMIN VƏ QAYNANASI RAHİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Sevinc Əhmədovaya**, dayısı

**TOFİQ MƏMMƏDƏLİZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Torpaq Şöbəsi, Kadasdr və Yer Quruluşu idarələrinin kollektivləri Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Qəbələ Rayon Şöbəsinin mütəxəssisi **Eynulla Umudalıyevə**, anası

**GÖZƏL UMUDALIYEVANIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
A. C. Cəlilov.



ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru



Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.